# Bəxtiyar Vahabzadə-90

## Xalq şairinin yubileyi qeyd olunub



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyinə həsr olunmuş "Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin fenomeni kimi" mövzusunda elmi konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli görkəmli şair və ədəbiyyatşünas, ictimai xadim, akademik Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığından ətraflı danışıb.Prezident İlham Əliyevin xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında bu il yanvarın 14-də imzaladığı sərəncamın şairin dövlətimizin verdiyi böyük qiymət, ümumxalq məhəbbətinin ifadəsi olduğunu bildirən akademik İsa Həbibbəyli vurğulayıb ki, xalqımız söz ustadının xatirəsini əziz tutur və əməyini yüksək qiymətləndirir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, görkəmli şair və ədəbiyyatşünas Bəxtiyar Vahabzadə çağdaş Azərbaycan ədəbi-bədii, ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdən olub. Bidirib ki, xalq şairinin geniş əhatəli yaradıcılıq yolu, elmi və pedaqoji fəaliyyəti, fəal vətəndaşlıq mövqeyi ilə müasir Azərbaycan ziyalılığının salnaməsinə qiymətli və yaddaqalan səhifələr yazılıb. Şanlı tariximizə, doğma torpağımıza, dilimizə, mədəniyyətimizə, folklorumuza və yazılı ədəbiyyatımıza dərin köklərlə bağlı olan Bəxtiyar Vahabzadənin həm də insanları milli ruhda nəfəs almağa səsləyən şair, alim, pedaqoq və vətəndaş olduğunu xüsusi vurğulayan akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycanda milli-mənəvi dəyərlərin inkişafında xüsusi xidmətləri olan xalq şairi bir ictimai xadim, vətəndaş kimi ana dilimizində fəal təbliğatçısı və qoruyucusu olub.

Sonra Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor Şirindil Alışanlı "Bəxtiyar Vahabzadə XX əsr ədəbiyyatının fenomeni kimi", Nəsimi adına Dilçilik İnstitutundan filologiya üzrə elmlər doktoru, professor Sevil Mehdiyeva "İstiqlal şairi Bəxtiyar Vahabzadə", filologiya üzrə elmlər doktoru Əlizadə Əsgərli "Bəxtiyar Vahabzadə poeziyasında vəzn və janr müəyyənliyi", Memarlıq və İncəsənət İnstitutundan sənətşünaslıq üzrə fəlsəfə doktoru Məlahət Ağayeva "Bəxtiyar Vahabzadə pyeslərinin səhnə təcəssümü" mövzularında məruzələrlə çıxış ediblər.